“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin
Müşahidə Şurasının qərarı ilə təsdiq edilmişdir.
Protokol № 4; Qərar № 12;
Tarix: 22.04.2021-ci il

# “Azərbaycan Beynəlxalq Bankı” ASC-də maraqlar toqquşmasının tənzimlənməsi

# S İ Y A S Ə T İ

## Mündəricat


1. Ümumi müddəalar ........ 3
2. Əsas anlayışlar ........ 3
3. Siyasətin məqsədi ........ 4
4. Maraqlar toqquşmasının tənzimlənməsi mexanizminin əsas iştirakçıları ........ 4
5. Maraqlar toqquşmasının tənzimlənməsi mexanizmi və onun əsas prinsipləri ........ 5
6. Maraqlar toqquşmasının müəyyən edilməsi ........ 6
7. Maraqlar toqquşmasının qarşısının alınması ........ 8
8. Maraqlar toqquşması baş verdikdə görülən tədbirlər ........ 10
9. Hesabatlılıq ........ 11
10. Məsuliyyət ........ 11
11. Yekun müddəalar ........ 11

## 1. Ümumi müddəalar

1.1. Bu Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, ”Banklar haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarına, “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Etik Davranış Məcəlləsi”nə və qabaqcıl təcrübəyə uyğun olaraq hazırlanmışdır və “Azərbaycan Beynəlxalq Bankı” ASC-də (bundan sonra – Bank) maraqlar toqquşmasının tənzimlənməsinin əsas prinsiplərini, məqsədlərini və bu istiqamətdə həyata keçirilməsi zəruri olan tədbirləri müəyyən edir.

1.2. Siyasət Bankın bütün əməkdaşlarını, eləcə də Bankla işgüzar münasibətlərdə olan kontragentləri, mal, iş, xidmət təchizatçılarını, məsləhətçiləri və bu statuslara uyğun olan digər fiziki və hüquqi şəxsləri əhatə edir.

## 2. Əsas anlayışlar

2.1. Bu Siyasətdə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **maraqlar toqquşması** – Bankın maddi və digər maraqları ilə onun əməkdaşları, habelə müştərilərinin oxşar maraqları arasında tərs mütənasiblik;

2.1.2. **konfidensial məlumat** – qanunvericiliklə və ya bankdaxili qayda və digər normativ sənədlərlə açıqlanması qadağan edilən və məhdud subyektlər dairəsinin istifadə etdiyi məlumatlar;

2.1.3. **Bankın əməkdaşları** – Bankın mövcud daxili strukturuna uyğun olaraq, vəzifəli şəxsləri (idarəetmə orqanlarının rəhbərləri və üzvləri, baş direktor(lar), İdarə Heyəti sədrinin müşavirləri, departament direktorları, Daxili audit departamentinin əməkdaşları, filial (şöbə) müdirləri) və digər əməkdaşları;

2.1.4. **Banka aidiyyəti olan şəxslər** – Azərbaycan Respublikasının qanunvericiliyi və bankdaxili normativ sənədlərlə müəyyən edilən şəxslər;

2.1.5. **müştəri** – Bankın müvafiq xidmətlərindən və ya məhsulundan istifadə etmiş, daimi və ya qeyri-müntəzəm istifadə edən, həmçinin istifadə etmək niyyətini bildirən fiziki və ya hüquqi şəxs;

2.1.6. **üçüncü şəxslər** – Bankla işgüzar münasibətlərdə olan kontragentlər, mal, iş, xidmət təchizatçıları, məsləhətçilər və bu statuslara uyğun olan sair digər fiziki və hüquqi şəxslər;

2.1.7. **yaxın qohum** – Bank əməkdaşının əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları;

2.1.8. **işdən kənar fəaliyyət** – ödənişli və ya ödənişsiz (könüllü əsaslarla) olmasından asılı olmayaraq, Bank əməkdaşlarının Bankda tutduqları vəzifədən kənar digər iş, xidmət sahələri üzrə fəaliyyətləri;

2.1.9. **hədiyyə** – alınması müqabilində hər hansı ödəniş nəzərdə tutulmayan maddi və ya qeyri-maddi formada olan istənilən qiymətlilər;

2.1.10. **Bankın idarəetmə orqanları** – Müşahidə Şurası, Audit Komitəsi, İdarə Heyəti;

2.1.11. **komplayns üzrə məsul struktur bölmə** – maraqlar toqquşması hallarının mütəmadi monitorinqini həyata keçirən, bu sahədə uyğunluğu təmin edən Bankın müvafiq struktur bölməsi;

2.2. Bu maddədə qeyd edilən anlayışlar yalnız bu Siyasətin məqsədləri üçün istifadə edilir.

2.3. Bu Siyasətdə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 3. Siyasətin məqsədi

3.1. Bu Siyasətin məqsədi Azərbaycan Respublikasının qanunvericiliyi, eləcə də beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri əsasında Bankda maraqlar toqquşmasının həll edilməsi sahəsində fəaliyyət mexanizminin formalaşdırılmasıdır.

## 4. Maraqlar toqquşmasının tənzimlənməsi mexanizminin əsas iştirakçıları

4.1. Bankın maraqlar toqquşmasının tənzimlənməsi mexanizminin əsas iştirakçıları aşağıdakılardır:

4.1.1. Müşahidə Şurası;

4.1.2. İdarə Heyəti;

4.1.3. komplayns üzrə məsul struktur bölmə;

4.1.4. insan resurslarının idarə edilməsinə məsul struktur bölmə;

4.1.5. Bankın digər əməkdaşları.

4.2. Müşahidə Şurası:

4.2.1. Bankın maraqlar toqquşmasının tənzimlənməsi siyasətini müəyyən edir və ona nəzarət edir;

4.2.2. Bankla Müşahidə Şurasının hər hansı üzvü arasında baş verə biləcək maraqlar toqquşmasının qarşısını alınması, belə hal baş verdikdə isə onun idarə edilməsi ilə bağlı tədbirlər görür (məsələn, qərarların qəbul edilməsindən kənarlaşdırma və s.).

4.3. İdarə Heyəti:

4.3.1. Bankın maraqlar toqquşmasının tənzimlənməsi siyasətini həyata keçirir;

4.3.2. Maraqlar toqquşmasının tənzimlənməsi çərçivəsində görülmüş işlərə dair Müşahidə Şurasına hesabat verir;

4.3.3. Bankla İdarə Heyətinin hər hansı üzvü arasında baş verə biləcək maraqlar toqquşmasının qarşısını alınması, belə hal baş verdikdə isə onun idarə edilməsi ilə bağlı tədbirlər görür (məsələn, səlahiyyəti çərçivəsində qərarların qəbul edilməsindən kənarlaşdırma və s.).

4.4. Komplayns üzrə məsul struktur bölmə:

4.4.1. Maraqlar toqquşması hallarının mütəmadi monitorinqini aparır və nəticələri barədə İdarə Heyətinə hesabat verir;

4.4.2. Bankın maraqlar toqquşmasının tənzimlənməsi siyasətindən irəli gələn bankdaxili qaydaların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayır və İdarə Heyətinə təqdim edir.

4.5. İnsan resurslarının idarə edilməsinə məsul struktur bölmə:

4.5.1. Maraqlar toqquşması halı baş verdikdə səlahiyyətləri daxilində onun aradan qaldırılması istiqamətində komplayns üzrə məsul struktur bölmə ilə birgə tədbirlər görür;

4.5.2. Bank əməkdaşlarının maraqlar toqquşmasının tənzimlənməsi siyasəti ilə tanış edilməsi istiqamətində tədbirlər görür.

4.6. Bank əməkdaşları:

4.6.1. Maraqlar toqquşmasının tənzimlənməsi siyasətinin tələblərinə riayət etməklə belə halların baş verməməsinə səy göstərirlər.

## 5. Maraqlar toqquşmasının tənzimlənməsi mexanizmi və onun əsas prinsipləri

5.1. Maraqlar toqquşmasının tənzimlənməsi mexanizmi aşağıdakı istiqamətlərdən ibarətdir:

5.1.1. maraqlar toqquşmasının müəyyən edilməsi;

5.1.2. maraqlar toqquşmasının qarşısının alınması;

5.1.3. maraqlar toqquşmasının idarə edilməsi;

5.1.4. hesabatlılıq.

5.2. Bankda maraqların toqquşmasının tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır:

5.2.1. Səlahiyyət bölgüsü – Maraqlar toqquşmasının baş verməsinə qarşısı preventiv tədbirlərin görülməsi, eləcə də belə hallar baş verdikdən sonra onların aradan qaldırılması məqsədilə Bankın idarəetmə orqanları, ayrı-ayrı struktur bölmələri, habelə əməkdaşları arasında səlahiyyət bölgüsü aparılmalıdır. Belə bölgü maraqlar toqquşmasının iştirakçısı ola biləcək instansiyalar arasında

sərhədlərin tətbiq edilməsinə imkan verir.

5.2.2. Qiymətləndirmə və davamlı inkişaf – Bankın maraqlar toqquşmasının tənzimlənməsi siyasəti mütəmadi əsaslarla yenidən qiymətləndirilir. Belə qiymətləndirmə Banka maraqlar toqquşmasının potensial baş verə biləcəyi sahələri müəyyənləşdirməyə, onun aradan qaldırılması metodlarını təkmilləşdirməyə imkan verir.

5.2.3. Şəffaflıq – Bank əməkdaşları vəzifə öhdəliklərinin icrasına maneçilik törədə biləcək potensial maraqlar toqquşması halları barədə aidiyyəti üzrə məlumat verməlidirlər. Bank bununla bağlı zəruri kommunikasiya kanalları müəyyənləşdirir.

5.2.4. Konfidensiallıq – Bank əməkdaşları vəzifə öhdəliklərinin icrasından irəli gələn və mahiyyətcə konfidensial hesab edilə biləcək məlumatlarla iş prosesində həmin məlumatların konfidensiallığının qorunmasına çalışmalı, belə məlumatlara çıxışı məhdudlaşdırılan və ya qadağan edilən şəxslər (əməkdaşlar, üçüncü şəxslər və s.) arasında yayılmasına şərait yaratmamalıdırlar.

5.2.5. Nəzarət və hesabatlılıq – Bankın maraqlar toqquşmasının tənzimlənməsi siyasətinin mütəmadi monitorinqi aparılır, nəticələri barədə aidiyyəti üzrə hesabat verilir.

## 6. Maraqlar toqquşmasının müəyyən edilməsi

6.1. Mümkün maraqlar toqquşması halları aşağıdakılar arasında baş verə bilər:

6.1.1. Bankla müştərilər;

6.1.2. Bankla onun əməkdaşları;

6.1.3. Bankın müştəriləri;

6.1.4. Bankın əməkdaşları;

6.1.5. Bankla üçüncü şəxslər;

6.1.6. Banka aidiyyəti olan şəxslər və müştərilər.

6.2. Maraqlar toqquşması aşağıdakı (lakin bunlarla məhdudlaşmayan) istiqamətlər üzrə yarana bilər:

6.2.1. iş fəaliyyətləri;

6.2.2. Bank əməkdaşlarının işdən kənar fəaliyyətləri;

6.2.3. institusional-təşkilati məsələlər.

6.3. İş fəaliyyətlərindən irəli gələn maraqlar toqquşması hallarına aşağıdakılar (lakin bunlarla məhdudlaşmayan) aid edilə bilər:

6.3.1. Bankın idarəetmə orqanları və işçiləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə;

6.3.2. Bankdaxili qaydalarla müəyyən edilmiş işgüzar ünsiyyət standartlarına və peşə etikası prinsiplərinə əməl olunmaması;

6.3.3. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müxtəlif əməliyyatlara qoyulmuş məhdudiyyətlərə əməl edilməməsi.

6.4. Bank əməkdaşlarının işdən kənar fəaliyyətlərindən irəli gələn maraqlar toqquşması hallarına aşağıdakılar (lakin bunlarla məhdudlaşmayan) aid edilə bilər:

6.4.1. Bank əməkdaşının digər təsərrüfat subyekt(lər)ində rəhbər vəzifə(lər)də işləməsi və ya həmin təsərrüfat subyekt(lər)inin idarəetmə orqan(lar)ında iştirakı;

6.4.2. Bank əməkdaşları tərəfindən müştərilərlə nümayəndəlik, zaminlik və bu kimi mahiyyətli münasibətlərin qurulması;

6.4.3. Bankla işgüzar münasibətlərdə olan digər təsərrüfat subyektində maliyyə maraqlarının olması;

6.4.4. Bankın idarəetmə orqanları tərəfindən təsdiqlənməli olan əqdlərin belə təsdiq olmadan bağlanılması;

6.5. İnstitusional-təşkilati məsələlərdən irəli gələn maraqlar toqquşması hallarına aşağıdakılar (lakin bunlarla məhdudlaşmayan) aid edilə bilər:

6.5.1. mövcud qanunvericiliyin, Bankın təsis və daxili sənədlərinin tələblərinin pozulması;

6.5.2. müştərilərin maraqlarının Bank əməkdaşlarının maraqlarından üstün olması prinsipinə əməl edilməməsi;

6.5.3. Bankın idarəetmə orqanları tərəfindən Bankın maliyyə vəziyyətinin pisləşməsinə və ya aşkar risklərin realizə olunmasına səbəb ola biləcək qərarların qəbul edilməsi;

6.5.4. Bankın (onun idarəetmə orqanlarının, əməkdaşlarının) və müştərilərin qəbul etdiyi qərarlara təsir edə biləcək mövcud qanunvericilik və bankdaxili sənədlərlə tələb olunan məlumatın verilməməsi və ya lazımınca açıqlanmaması, habelə yalan məlumatların verilməsi;

6.5.5. Bank və (və ya) müştərilər tərəfindən müqavilə öhdəliklərinin yerinə yetirilməməsi;

6.5.6. Şəxsi maraqlar naminə Bankın maraqlarına zidd olaraq xidmətlərin göstərilməsi və ya müvafiq işlərin görülməsi məqsədilə Bankın tərəfdaşlarına işgüzar imkanların verilməsi;

6.5.7. Bank əməkdaşının müştərinin adından həyata keçirilən əməliyyatlarda müştərinin qanunvericiliklə yol verilən maraqlarına zidd maraqlarının olması;

6.5.8. Bank əməkdaşının biznes və ya qohumluq əlaqəsi olan müştərilərə xidmət göstərilməsi prosesində iştirak etməsi;

6.5.9. Eyni fəaliyyət sahəsində çalışan və bir-birinin rəqibi hesab edilə biləcək bir neçə müştəriyə eyni vaxtda xidmət göstərən Bank əməkdaşı tərəfindən xidmət prosesində həmin müştərilərlə bağlı ona məlum olan informasiyanın yayılması.

## 7. Maraqlar toqquşmasının qarşısının alınması

7.1. Maraqlar toqquşması hallarına qarşı preventiv tədbirlər aşağıdakı istiqamətlər üzrə qruplaşdırılır:

7.1.1. <u>Reqlamentləşdirmə</u>

7.1.1.1. Maraqlar toqquşması hallarına yol verilməməsi üçün Bank müxtəlif fəaliyyət istiqamətləri üzrə biznes prosesləri reqlamentləşdirir (sənədləşdirir). Bank əməkdaşları tərəfindən belə sənədlərin tələblərinə riayət edilməsi Bankın qanuni maraqlarının qorunmasına, müştərilərə münasibətdə isə peşəkarlıq nümayiş etdirilməsi ilə nəticələnir;

7.1.2. <u>İnformasiya bariyerlərinin tətbiqi</u>

7.1.2.1. Bank maraqlar toqquşmasının qarşısını almaq məqsədilə müştərilər haqqında malik olduğu ictimaiyyətə açıq olmayan informasiyanı konfidensial saxlayır.

7.1.2.2. Konfidensial məlumatlara çıxış imkanı yalnız həmin məlumatları xidməti vəzifələrinin icrasında istifadə edəcək əməkdaşlara verilir.

7.1.3. <u>Funksiyaların ayrılması</u>

7.1.3.1. Fəaliyyət zamanı maraqlar toqquşmasının yaranması halları mövcud olan struktur bölmələrin və əməkdaşların funksiyaları bir-birindən ayrılır.

7.1.4. <u>Mükafatlandırma</u>

7.1.4.1. Bank əməkdaşlarının funksional vəzifə öhdəliklərini tam, düzgün və qərəzsiz şəkildə yerinə yetirmələri üçün müvafiq, rəqabətədavamlı, mütənasib əmək haqlarının, eləcə də mükafatlandırmanın təmin edilməsi onları maraqlar toqquşmasından çəkinməyə, habelə müştəri üçün ən yaxşı nəticələr əldə etməkdə zəruri tədbirləri görməyə təşviq edir;

7.1.5. <u>Təlim və maarifləndirmə</u>

7.1.5.1. Bank maraqlar toqquşması haqqında bütün əməkdaşları, eləcə də üçüncü şəxsləri məlumatlandırmaq məqsədilə tədbirlər görür.

7.1.5.2. Bank əməkdaşlarına ildə bir dəfə bu Siyasətin müddəaları, maraqların toqquşması hallarının müəyyən edilməsi və belə hallar baş verdikdə görülməli olan tədbirləri özündə ehtiva edən təlimlər keçirilir. Bununla yanaşı, zərurət yaranarsa, Bank maraqlar toqquşmasına dair əməkdaşların ehtiyaclarına uyğun spesifik təlimlər də təşkil edir.

7.1.6. <u>Müştərilərin məlumatlandırılması</u>

7.1.6.1. Bank tərəfindən həyata keçirilən tədbirlərə baxmayaraq maraqlar toqquşmasının qarşısını almaq mümkün olmursa müştəri ilə hüquqi münasibətlər qurmadan əvvəl ona bu barədə məlumat verilir.

7.1.6.2. Cari müştərilər üzrə də hər hansı maraqlar toqquşması halları məlum olarsa müştərilərə bununla bağlı məlumat verilir.

7.1.7. <u>Əməliyyatın icrasından imtina</u>

7.1.7.1. Reputasiya və hüquqi risklərə yol verməmək məqsədilə maraqlar toqquşmasını həll etmək mümkün olmadıqda, Bank müvafiq müştəri üçün müəyyən əməliyyat(lar)ı və ya xidmət(lər)i həyata keçirməkdən imtina edə bilər.

7.1.8. <u>Digər institusional-təşkilati məhdudiyyətlər</u>

7.1.8.1. Bank əməkdaşıları xidməti vəzifələrinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən, yaxud bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edə bilməzlər.

7.1.8.2. Müəyyən mükafat müqabilində bank əməkdaşının qərarına qanunsuz təsir göstərmək imkanına malik olduğunu bildirən hər hansı şəxsə birbaşa və ya dolayı yolla maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin təklif olunması, vəd edilməsi və ya verilməsi qəbul edilməzdir.

7.1.8.3. Bank əməkdaşları xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz.

7.1.8.4. Yaxın qohumların tabeçilik münasibətlərində olmasına yol verilmir. Tabeçilik münasibətləri yalnız birbaşa tabeçilikdən deyil, həmçinin

vəzifənin funksionallığı, qohumluq əlaqələrində olan əməkdaşların Bankda tutduqları vəzifənin xüsusiyyətləri (qohumuna münasibətdə maraqlar toqquşma şərait yarada bilən səlahiyyətləri, birbaşa və ya dolayı təsir imkanları və s.) kimi faktorlardan da irəli gələ bilər.

7.1.8.5. Banka aidiyyəti olan şəxslərin yaxın qohumlarının işə qəbulu zamanı insan resurslarının idarə edilməsinə məsul struktur bölmə tərəfindən komplayns üzrə məsul struktur bölməyə, kuratorlara (məsul rəhbərlərə)[1] məlumat verilir.

7.1.8.6. Banka aidiyyəti olan şəxslərin yaxın qohumunun Bankda struktur bölmə rəhbəri vəzifəsinə işə qəbul edilməsi nəzərdə tutularsa, bu Siyasətin 7.1.8.5-ci yarımbəndində qeyd edilən instansiyalarla yanaşı İdarə Heyətinin sədri də məlumatlandırılır.

7.1.8.7. Bank əməkdaşları Bankdan kənar iş fəaliyyətləri (belə iş fəaliyyəti bu Siyasətə uyğun olaraq Bankın maraqları ilə toqquşma ehtimalı yaratdıqda) ilə bağlı insan resurslarının idarə edilməsinə məsul struktur bölməyə məlumat verməlidirlər. Həmin struktur bölmə belə məlumatı komplayns üzrə məsul struktur bölməyə ötürür.

7.1.8.8. Bankın əməkdaşı statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə şəxsi maraqlarına aid məsələlərin həllinə təsir edə bilməz.

7.1.8.9. Bankın əməkdaşı vəzifə tutduğu və ya ona tabe olan, onun nəzarətində olan, habelə ona hesabat verən orqanların (qurumların) işi üzrə fiziki və ya hüquqi şəxslərin nümayəndəsi qismində iştirak edə bilməz.

## 8. Maraqlar toqquşması baş verdikdə görülən tədbirlər

8.1. Komplayns üzrə məsul struktur bölmə maraqlar toqquşması halları ilə bağlı aparılan təhlil əsasında müvafiq qərar qəbul edir.

8.2. Təhlil nəticəsində maraqlar toqquşması hal(lar)ı müəyyən edilərsə, komplayns üzrə məsul struktur bölmə belə hal(lar)ın aradan qaldırılması ilə bağlı təkliflər hazırlayır və İdarə Heyətinə təqdim edir.

---

[1] Həm sahə kuratoru (məsul rəhbər), həm də insan resurslarının idarə edilməsinə məsul struktur bölmənin kuratoru (məsul rəhbər) məlumatlandırılır.

## 9. Hesabatlılıq

9.1. Komplayns üzrə məsul struktur bölmə tərəfindən Bankda baş vermiş bütün maraqlar toqquşması halları qeydiyyata alınır və onların mütəmadi monitorinqi aparılır.

9.2. Komplayns üzrə məsul struktur bölmə Bank əməkdaşlarının işdən kənar fəaliyyətləri ilə bağlı təqdim edilən məlumatların elektron uçotunu aparır.

9.3. Komplayns üzrə məsul struktur bölmə illik əsaslarla bu Siyasətdə təsbit edilmiş maraqlar toqquşmasının tənzimlənməsi tədbirlərinin həyata keçirilməsinə dair hesabat hazırlayır və İdarə Heyətinə təqdim edir. İdarə Heyəti tərəfindən təsdiq olunmuş hesabat Müşahidə Şurasına təqdim edilir. Hesabatda ən azı aşağıdakılar öz əksini tapır:

- maraqlar toqquşmasına məruz qalma baxımından risklərin təhlili;
- cari ildə maraqlar toqquşmasının tənzimlənməsi istiqamətində həyata keçirilmiş tədbirlər;
- növbəti il(lər)də maraqlar toqquşmasının tənzimlənməsi istiqamətində nəzərdə tutulan tədbirlər.

## 10. Məsuliyyət

10.1. Bankın bütün əməkdaşları bu Siyasətin tələblərinin lazımi qaydada yerinə yetirilməsinə bilavasitə məsuliyyət daşıyırlar.

10.2. Bu Siyasətdə nəzərdə tutulmuş tələblərin pozulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətin yaranmasına səbəb ola bilər.

## 11. Yekun müddəalar

11.1. Bu Siyasət Bankın Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

11.2. Bu Siyasətə hər hansı əlavə və dəyişikliklər Müşahidə Şurasının qərarı ilə aparıla bilər.